## *İnam Ata (Asif ATA) - 90*

# AYDINLARIMIZ: İNAM ATA (ASİF ATA) HAQQINDA

***(Əvvəli ötən sayımızda)***

***Mütləqə İnam Fəlsəfəsinin Yaradıcısı, Ruhsal Ocaq Atası, Dahi Azərbaycan Filosofu İnam Atanın (Asif Atanın) 90-cı ildönümüdür (1935-1997). Oxuculara "Aydınlarımız İnam Ata (Asif Ata) haqqında" başlığı altında yazını təqdim edirəm.***

**Sayğılarla: İşıqlı ATALI**

* * *

Asif Ata ilə ilk görüşümüzdə onun fikirləri mənə heyranlıqla mütailə etdiyim yunan alimləri sayaq təsir etdi. O vaxt "Gənc qələmlər" məclisini mən aparırdım. Bir dəfə Asif Atanı oraya gənclərlə görüşə dəvət etdim. Axı onlar da ideal axtarırdılar...

**Cəmil Əlibəyov, yazıçı**

* * *

Mənim üçün Asif Ata Azərbaycan ədəbi-bədii, tənqidi fikrində çox görkəmli, özünəməxsus dünya duyumu, dünyabaxışı, orijinal düşüncə tərzi olan bir mütəfəkkir idi. Mən onu həyatda görmüşəm, müşahidə eləmişəm, söhbətlərinə qulaq asmışam. Həmişə bunun şahidi olmuşam ki, o, adlarına, vəzifə məqamlarına baxmadan ədəbiyyat adamlarına münasibətdə həmişə çox cürətli davranıb.

**Çingiz Əlioğlu, şair**

* * *

Sovet dövlətinin qılıncının dalının, qabağının kəsdiyi bir çağda həqiqəti qorxmadan söyləmək hər kəsin işi deyildi. Asif Atanın "Etik və Estetik Tərbiyə Klubu" o dövrün minlərlə gəncinin milli yaddaşının korşalmasının qarşısını aldı. Həyatda nə qazanmışamsa, uğurlarıma görə ilk olaraq Asif Ataya borcluyam. Ata tək şəxsiyyət idi ki, biz gənclər mübahisə edərkən ancaq onun sözünə əsaslanırdıq. Onun Sözü dartışmamızı kəsir, nöqtə qoyurdu. Ən çətin məqamımızda onu özümüzə doğma sanırdıq. Kitabxana sanki onun evi idi. Onun oxuduğu kitabların siyahısı tutulsaydı, heyrətamiz bir mənzərə alınardı.

**Əhməd Oğuz, şair, araşdırmaçı**

* * *

Asif Ata Azərbaycan fəlsəfəsində, elmində, ruhaniyyatında böyük bir iz qoymuş şəxsiyyətdir. Atanın yaradıcılığında Azərbaycanın bütövlüyü məsələsi başlıca yer tutur.

**Əkrəm Rəhimli, tarixçi**

* * *

Gəncliyimdə Asif Atanın müdrik kəlamları minlərlə həmyaşıdım kimi mənim də yaddaşımda möhkəm qalıb. Asif Ata fikrini həmişə açıq deyirdi. Onu insanlara sevdirən də bu idi.

**Eldəniz İbrahimov, sənətşünas**

* * *

Asif Ata özündən öncəki nəzəriyyə və təlimlərin insana onun gerçəkliyinə dayanma yönündən yanaşmalarını məqbul saymadı. İnsana öz mahiyyətindən, mütləqliyindən dəyər verdi və bəşərin nicatını insanlaşmaqda gördü. "İnsanlaşın-İnsanlaşdırın!" harayı ilə yurddaşlarını, dünyadaşlarını İnsanlıq Erasının silahdaşları, yurddaşları olmağa səslədi.

**Əlisahib Əroğul, yazıçı**

* * *

O bütün fikirlərini böyük cəsarət və uzaqgörənliklə, peyğəmbərcəsinə söyləyirdi.

**Esmira Fuad,**
**ədəbiyyatşünas-publisist**

* * *

Asif Ata zəngin mənəviyyatlı bir insan kimi yadaşımda qalıb. Bizi ədəbiyyata bağlayan, geniş mənada ədəbiyyatı tanıtdıran Asif Ata oldu. Moskvada şahidi olduq ki, Atanın ağıllarda necə güclü obrazı, təsiri var.

**Eyvaz Borçalı, şair**

* * *

Asif Ata xatirimdə açıq fikirliyi, cəsarətli davranışları, məşhur yazıları ilə qalıb. Böyük idrakına həmişə heyran olmuşam. Onun həyatını öyrəndim, gördüm ki, başına olmazın çətinliklər gəlib, ancaq yenilməyib.

**Fəxrəddin Əli, rəssam**

* * *

Asif Ata ilə hər söhbətdə adam durulaşırdı. O, insanı dərindən tanıyırdı. Atanın İnamı - İnsanlıq, Vətənpərvərlik Fəlsəfəsidir. Yadımdadır, Asif Ata səhərdən axşamacan kitabxanada oxuyur, yazıb-yaradırdı. Axşam hamı gedirdi, ancaq Ata hələ də kitabxanada oxuyurdu, oxumaqdan, öyrənməkdən, yazıb-yaratmaqdan zövq alırdı. Xəlqi olmaq çətin işdir. Asif Ata isə bunu bacardı.

**Elxan Məmmədli, alim**

* * *

Asif Ata müdrik bir şəxsiyyətdir. Azərbaycanın birliyi, bütövlüyü məsələsi ilə bağlı dəyərli fikirlər söyləyib. Asif Atanın fikirləri dərindən öyrənilməlidir.

**Əliyar Səfərli, ədəbiyyatşünas**

* * *

Atanın qəribə xasiyyəti vardı: onun danışığı, davranışı, fikirləri adi adamlardan bütünlüklə fərqlənirdi. Bu mənada mən Asif Atanı özüm üçün kəşf etmişdim. Asif Ata xalqımız üçün böyük bir fəlsəfi irs yaradıb. Biz Atanın müqəddəs fəlsəfəsini həmişə dəyərləndirməliyik.

**Söhrab Tahir, Xalq şairi**

* * *

Asif Atanı Moskvada da çox gözəl tanıyırdılar. Yüksək erudisiyalı insan idi. Elmləri dərindən bilirdi, geniş idrakı ilə rus alimlərinə meydan oxuyurdu. Asif Ata haqqında ardıcıl araşdırmalar aparılmalı, gərəkliyi topluma çatdırılmalıdır.

**Gülnaz Abdullazadə,**
**fəlsəfə elmləri doktoru, professor**

* * *

Asif Atanı həmişə öz sözü olan, cəsarətli, müdrik bir şəxsiyyət kimi tanımışam. Heç zaman dediyindən dönməzdi. Asif Atanın şəxsiyyəti, dünyabaxışı xalqımız üçün çox gərəklidir. Asif Ata şöbəmizdə çalışarkən "Muğam Fəlsəfəsi" adlı məşhur əsərini yazdı.

**İnqilab Kərimov,**
**AMEA-nın müxbir üzvü**

* * *

Yadımdadır, o zaman şimşək kimi çaxırdın, aləmə nur saçırdın. Bax, o zaman aşiq olmuşdum sənin vüqarına, əzəmətinə, haqqa qovuşmaq eşqilə döyünən ürəyinə. O zaman sən deyirdin: "Dünyada var ancaq bir həqiqət, o da həqiqət yolunda ölmək!"

**İslam Ağayev,**
**filologiya elmləri doktoru**

* * *

Böyük ziyalı Asif Atanı həmişə yolundan dönməyən, öz sözü olan bir şəxsiyyət kimi tanımışam.

**İsmayıl Vəliyev, professor**